agency responsible for inviting foreigners. I couldn't speak Azerbaijani yet so there were 2 translators for me. I wanted to speak Azerbaijani because I knew I was going to visit Azerbaijan again, perhaps many times. There were no teachers here so I had to teach myself, even without a dictionary. But I managed to learn the language quickly because I enjoyed it so much. After a few years, I was speaking Azerbaijani not too badly. It's a good thing since I did have a meeting with your great leader Heydar Aliyev in 1997 who had a most impressive personality. It was a great honor and a pleasure to meet with him. We spoke for more than an half an hour; he gave his time to meet with me even though he had important meetings on the same day.

I had to learn the Azerbaijani language. It is really useful because, during the making of the film, we traveled to the regions of Azerbaijan. I didn't have a translator during this period but I didn't need one. It was also helpful when I studied mugham from the kamancha player who came to Brooklyn as he did not speak English yet. In learning music, it is better to be able to converse but not necessary. We don't have to learn a language for playing mugham. I had some students in America, one is Azerbaijani, Azer Demirov, who plays the violin. I taught him Bayati Shiraz. We both speak English and Azeri but we didn't need to discuss much; I would show a phrase and he would repeat it. And I also taught several American students how to play mugham. They didn't need to learn Azerbaijani, they just listened to me very carefully and learned mugham's structure and texture. I hope one day I will bring them to Azerbaijan when traveling restrictions are lifted. They will be able to demonstrate their skills in mugham.

***Fatma:*** We recognized Nizami Pashayev thanks to your documentary movie. His singing grieved all of us. When was your last meeting with him? Are you still in contact?

***Jeffrey Werbock:*** We met last in Azerbaijan in 2016. Our story is told in the movie. When we first met in one of the refugee camps in 2000, he was only 14 years old yet his singing was extraordinarily emotional. He sang "Haqqimiz yox danishmaga daglardan, azad elemesek yagilardan". When I edited the videos we made during that expedition, I watched him sing many times. We say in Azerbaijani, "Tüklərim biz-biz durub". We can't expect these emotions from a 14-year-old boy, it was shocking for everyone. Mugham is so deep, so complex. How do your children do these miracles? It is really "mocuze". We are not talking about a couple of children, perhaps prodigies; there seems to be hundreds of children who have the ability to sing mugham at a very high level of quality. I am an adult but I can't sing like these children. We returned to the camps after 8 years to find him again. We did find him but he doesn't sing anymore, very sad. In 2016 we met again in the Nizami theatre when there was an event for our movie. I also met with Elnur Mahrammov who was a refugee from Aghdam and who served as our guide in the villages and camps. One of the children singers from the filming in 2008 I am still in contact with; Asker Askerzade, whose parents were refugees from Aghdam, now living nearby in Quzanli. He was only 12 years old at the time (2008), singing Qarabagh Shikestesi and mugham Segah. We ended the film with that scene because of the positivity of the message that the new generation must carry this tradition to future generations. Asker continued to singing after becoming an adult. I invited him to the USA where we performed 2 times, once at University of Pennsylvania in Philadelphia, and once in Princeton University in New Jersey, both very prestigious venues. Now we are planning to do more collaborations and I hope one day we will perform in Aghdam and Shusha.



***Fatma:*** What other influences helped to shape the way you play mugham today? What does mugham mean to you, since you did not grow up listening to this kind of music?

***Jeffrey Werbock:*** In addition to the musicians who play on Azerbaijani instruments, there are many who play on western instruments and I listen to them too. Each instrument invites us to play mugham in unique ways and they all contributed to my way of playing mugham. Regarding my feelings about mugham music in general, there is a difference between your approach and my approach. Your parents and grandparents listened to mugham, but mine didn't. I was 21 years old when I first heard mugham. For many Azerbaijanis, mugham can evoke a kind of patriotic feeling, pride in one's ethnic heritage which of course does not apply to us foreigners who happen to love your mugham. I also hear from Azerbaijanis they feel a deep sadness from mugham, but when I play mugham, I feel none of that, I feel joyous. Of course there is a bit of sorrow in mugham music but for me there is mostly joy. I see joy on the faces of Azerbaijanis when they listen to mugham but for some reason they emphasize the sadness when they talk about their feelings.

***Fatma:*** Surely you know about our history and you know about Karabakh. Do you want to share with us any thoughts about that?

***Jeffrey Werbock:*** Often I am asked questions about the situation in Karabakh. I don't have the right to comment, because I am just a musician, not a politician or historian. Whatever the Azerbaijani people want, I want them to have that. When Azerbaijani people are happy, I am happy. We all suffered from this occupation. I remember like yesterday when Kalbajar was newly occupied. I tried to explain this to people in my country, but they only read propaganda that Azerbaijan was the aggressor country, not Armenia. They didn't know the reality. Eventually officials in the State Department of USA understood the truth for themselves. During those times, there were very few Azerbaijanis in USA from Baku side. I just had one friend who was from Baku. Except for him, all



of my Azerbaijani friends were from Iran and were mostly students and professors in American universities. When I asked them about Karabakh, they said "This is not our problem". It was just shocking for me, and disappointing. They were focused on the problem of publicly speaking the Azerbaijani language in Iran, because 30 years ago it was dangerous. But now, they think about Karabakh, they are proud of this, because Azerbaijan got its lands back.

***Fatma:*** If there would be mugham festivals in Shusha, would you like to participate?

***Jeffrey Werbock:*** Yes, I absolutely would like to! In 1997, meeting with Heydar Aliyev, he asked me, "Is there anything we can do for you?". And I said, "When you get Shusha back, I want to help build a mugham school there." I explained that I was an engineer and know how buildings are built. And he said, surprised, "Shusha?" Shusha is known as the cultural capital of Karabakh. And Karabakh is known to be the birthplace of mugham. So we are waiting for the Azerbaijani government to rebuild those places in Karabakh, especially Shusha, so, we can come and visit. And we want to promote tourism there; all people must come and see this miracle in the Caucasus.

***Fatma:*** You are absolutely right! Next question is, which musicians are you inspired by in Azerbaijan?













AZERBAIJAN NATIONAL CONSERVATORY

DIPLOMA

OF

HONORARY PROFESSOR

PROMINENT AMERICAN MUSIC MASTER

Mr. JEFFREY WERBOCK

IS AWARDED A TITLE

OF AN HONORARY PROFESSOR OF

AZERBAIJAN NATIONAL CONSERVATORY

*For exceptional contribution to the promotion of culture and the protection Azerbaijan national music*

BY ORDER OF

THE ACADEMIC BOARD

OF AZERBAIJAN NATIONAL CONSERVATORY

Rector,
professor S.A.Karimi

Baku city
17 oktober 2016 Protocol № 2

Regr № 234

***Jeff:*** They all are inspiring for me, they all are amazing. Everybody in the Milli conservatory, in Asef Zeynalli mugham school, Ince Senet Universiteti, they are all my brothers and sisters. Even the wedding musicians, they all inspire me, they are all great musicians and they know mugham so well.

> There can be no other explanation of mugham except as a miracle.

***Mr. Samir:*** I can recommend you to listen to Vafa Orujova. She participated in the mugham competition approximately 7 years ago. You will probably like her singing. Because she sings from the bottom of the heart. Especially Bayati Shiraz she sings super!

***Jeff:*** InshAllah we are going to sing and play Bayati Shiraz in Shusha!

***All:*** InshAllah!

***Mr. Samir:*** I want to ask Mr. Jeffrey's this question. We have mainly three instruments in mugham which are kamancha, tar, and ud. In my feeling, kamancha is crying, tar is telling, the voice of ud is like mystical. Do you agree with me?

***Jeff:*** I can agree with you on one point. If kamancha is in the right hands, it can tell or it can cry, and it's sound is more mystical than any other instrument. The sound of kamancha is really a miracle. I remember that first time when I listened to mugham Shur on kamancha. It was just amazing. I can't understand, why doesn't the World know about mugham, this miracle? Why just me, not other musicians? You have this power and also your children have it. There can be no other explanation of mugham except as a miracle. I am 69 years old and I have never seen a miracle, except in Azerbaijan. That is why I made a film to show to the whole world how your children sing mugham. This was not easy. It was expensive to make this film. But we were very lucky, we found a young businessman, Tale Heydarov agreed to produce it. And he didn't want to show his name, he didn't want people to think he is trying to promote himself, gain favor, or anything. I said, "Yes, good, but the name of the producer must be in the film credits, you have got to tolerate this". He is extremely modest.

And we are going to make another film too. He called me 7 weeks ago and said "Jeffrey, are you ready to go back to Azerbaijan?''. And I said, "As soon as traveling restrictions are lifted, yes why not?". He said, "We want to go to Shusha". At that time Shusha had not yet been liberated. And I said, "What do you mean Shusha, it is occupied". And he said, "Soon it will be ours". I just said, "I want to go to Shusha!'' And approximately one week later, he called me that Shusha is liberated! You can't imagine my reaction. Finally after waiting patiently all these years we are going to make kabab and sing "Shushanin Daghlari". After 30 years, you got back your homeland. You suffered for years and then you got your lands back!

***Mr. Samir:*** Yes. These people deserved this victory after 30 years. You can't imagine the happiness in the people's souls. We are so happy for liberation. Thank you, Mr. Jeffrey! That was really amazing to have a meeting with you!

***Fatma:*** I will never forget this interview. It was unforgettable!



Embassy of the Republic of Azerbaijan

Mr. Jeffrey Werbock
26 East Miami Avenue
Cherry Hill, NJ 08034

February 12, 1999

Dear Jeffrey,

I was very interested to hear your plans to make a documentary film about Azerbaijani music. I think such a film would be very helpful to educate Western television audiences and school groups about our culture and history. I fully support your idea and I know there are many fellow musicians in Baku who will give you their full cooperation.

I am certain that the American business community will support this project to make this film possible. Please keep me informed of your progress and let me know if there is anything further I can do for you.

Sincerely,

Hafiz Pashayev
Ambassador

927 Fifteenth Street, N.W., · Suite 700 · Washington, D.C 20005 · Tel: 202-842-0001 · Fax: 202-842-0004

***Jeffrey Werbock:*** Thank you Samir and Fatma for giving this opportunity to me. I shared my ideas thanks to your interview. And I want to thank your ADA school, especially my dear friends Hafiz Pashayev, Fariz Ismayilzade, and Shafag Mehraliyeva. Hafiz Muellim was ambassador to the USA for 13 years, we met often and had good times together. I hope that the reputation of Azerbaijan will be helped by the existence of the Azerbaijan Diplomatic Academy and University, which is a fantastic institution.

***Mr. Samir:*** Thank you. InshALLAH we will meet face to face in Baku soon and we will have a great talk again!



# ADA SCHOOL

Established in 2019, ADA School offers education in English and Azerbaijani languages for Grade 10 and education in English for Grade 11. Combining national curriculum of the Republic of Azerbaijan and the academic experience of ADA University, ADA School curriculum enhances learning experiences with skills and values. The curriculum offers a breadth of knowledge in multiple disciplines combined with communication and leadership skills much needed in the 21st century. With the global outlook and traditions of academic excellence, the school alumni become competitive in admission processes to universities, whether through State Examination Center (SEC) or SAT exams. ADA School alumni are also eligible for admission to ADA University on special terms.




Photo by Leyla Kazdal 10B1

# Qarabağım - Ana Yurdum mənim



**«Bu məqaləmin davamını Qarabağda yazmaqdır arzum...» Rəşidə Şahmalıyeva**

Qarabağım - Ana Yurdum mənim. Budur, bitdi neçə illik həsrətimiz. Bizimlə- övladlarınla birgə yeni, bambaşqa bir həyat səni gözləyir. Heç bilmirik ki, neçə ilin həsrətini tez bir zamanda necə söndürəcəyik. Hər bir övladın Sənin hər bir qarışın üçün çox darıxıb. Ən əsası isə o dillərə dastan olan təbiətin, havan və suyun üçün.

Bizlər - yeni nəsil Azərbaycan gəncləri Sənin haqqında çox eşitdik və indi də o gözəllikləri görmək üçün gəlirik. Şüşə kimi təmiz dağ havanı, suyunu, dünyanın ən nadir bitkisi olan xarıbülbülünün qoxusunu ciyərlərimizə çəkib atlarını sürmək üçün səbirsizliklə evimizdə oturub günlərimizi sayırıq. Bəli, nə qədər çətin olsa da buna cəhd göstəririk. Böyüklərimizin dilindən düşməyən həmin yerləri - Şuşa qalasını, Cıdır düzünü, İsa bulağını canlı şəkildə seyr etməyə bir addım yaxınlığındayıq. Səbirsizliklə gözləyirik. Bilirsiniz heç niyə bu qədər səbirsizliklə gözləyirik?! Axı dünyanın ən qeyri-adi, öz qoxusu ilə insanı valeh edən bitkisi, süratı ilə seçilib yaraşığı ilə hamını heyran qoyan atının və özünə məxsus flora-faunası olan diyarımızdan söhbət edirik. Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarasının yerləşdiyi torpaqlardan söz açırıq.

Saymaqla bitməyən gözəlliklərini, təbiiliyini hər bir vətənpərvərimiz öz qəlbində canlandırır və sanki təbiətinin qoynunda oturmuş kimi hiss edib mənim hal-hazırda bu sözləri yazarkən yaşadığım hissləri yaşayır. O qürur, təbəssüm, sevinc hissi ki hər dəfə adın çəkilən zaman üzümüz və könlümüzdə yaranır. O hisslər ki doğulduğumuz andan bizimlə olub Səni qəlbimizdə özəl hiss etdirir.

Bu günlərdə həmin həsrət hisslərimiz tamamilə sevincə və səbirsizliyə köklənib. O dillərə dastan olan təbiətini eşidib oxuduqlarımla deyil də, canlı-canlı Cıdır düzündə yazmaqdır arzum. Gözəlliyindən doyub bu sözlərimi davam etdirməkdir ən böyük arzum. Bu məqaləmin davamını Qarabağda yazmaqdır arzum...

***Rashida Shahmaliyeva*** **11B4**



Photos by Etibar Javarov



Karabakh horse breed is called one of the oldest in the world. The homeland of this breed is the highlands of Karabakh. The most typical representatives of this breed were kept at the Agdam stud farm, which is considered the breeding core for the Karabakh breed.

**Karabakh stallion Ada**
Photo by Simone Kochanek

# KARABAKH HORSES



**Silke Ehrenberger and stallion Ada**

Modern Karabakh horses are medium-sized animals, about 144-154 cm high at the withers, with a neck of medium length, a small head, a deep and wide chest, and well-developed muscles. Horses of this breed are distinguished by clear and fast movements, harmonious physique. Precisely because of this, in folklore, the horses of the Karabakh breed were often compared to gazelles. Karabakh horses have a beautiful color. The color of the Karabakh breed can be red, buckthorn, brown, bay, gray or golden-red, which is also called the «golden glow».



ADAlilar editorial board members met with some experts in Azerbaijan and Germany and talked about Karabakh horses, their history and breed kharacteristics. The more we talked about these beautiful enimals, the more we loved them. Let us introduce our experts and what they talked about Karabakh horses.

# MEET OUR EXPERTS



**Verena Scholian**
President of IG Karabagh and Eurasian horse breeds



**Bahruz Nabiyev**
Chief Secretary of Equestrian Federation of Azerbaijan Republic



**Silke Ehrenberger**
Vice-president of IG Karabagh and Eurasian horse breeds

## Interview with Verena Scholian, the President of IG Karabakh and Eurasian horse breeds.

**ADAlilar: What features differ them from other breeds?**

**Verena Scholian:** First of all, in my opinion, I would say «I can discover a Karabagh horse out of hundreds of other horses, because of his beautiful special appearance». I once saw a stallion in my neighbourhood, looking like a Karabagh, I asked the owner of the stable, if he could tell me, which horse breed I saw in his stable: he said - «It´s a horse from Russia but please ask his owner. I asked and... it was a Karabagh!

**ADAlilar: What are the main three characteristics of Karabakh horses?**

1. Karabagh horses has a noble, royal exterior with metallic shiny fur, sometimes with a forth gait (Yorga).

2. Karabagh horses are sure footed, especially in mountains and you may trust each step of your horse.

3. Karabagh horses will not get into panic, or if, they only stop and wait what will happen.

**ADAlilar: How long have you been selecting/cultivating Karabakh horses?**

**V. S.:** My first Karabagh horse was a stallion «Inturist», I bought him because he was (although stallion!) very calm, kind and friendly. I bought him without knowing, that he was a Karabagh, because his passport was written in cyrillic letters. After I learned Russian and translated his document. Then I began to know: he was a Karabagh. Since this time I have devoured everything that was explored about this breed. Unfortunately very less books.

**ADAlilar: Are horses popular in Germany? Why?**

**V. S.:** At this time in Germany riding on horse back was a sport, which was very popular and especially girls wants to learn riding. But unfortunately buying a horse and care for it is very expensive in Germany, so you can only keep a horse, when you have a good job.

**ADAlilar: If there would be a scale of animals with high intellect, on which place you would locate horses?**

**V. S.:** Horses are animals which would be not in high rank in intelligence, they are not as intelligent as dogs or dolphins, but you can teach them some tricks easily, when you take advantage of their natural instinct.
They can carry blankets, buckets, can play football, can jump through a ring of fire, lay down or do some other things they had learned. I guess, horses, especially Karabagh horses like to please their owners.

**ADAlilar: What should we do to make Karabakh horses more popular in the World?**

I myself have tried to make the Karabagh breed well known since 30 years, wrote articles, published internet website and have bred about 25 foals so far.







# Qarabağ atları



**Qarabağ atları... Azərbaycan xalqının dünya atçılığına bəxş etdiyi, alovlu qızılı – kürən rəngini günəşdən, güc və qüdrətini dağlardan alan bir at cinsi...**

**ADAlılar jurnalının redaktə kollegiyasının üzvləri Azərbaycan Respublikası Atçılıq Federasiyasının Baş katibi Bəhruz müəllim Nəbiyevin də mütəxəssis rəyini öyrəndilər.**

***ADAlılar: Biz bu yaxında Qarabağ uğrunda gedən müharibədə möhtəşəm bir qələbə qazandıq. Qarabağı qaytardıq. Bəlkə də çoxları bilmir ki, Qarabağ torpağı özünün zəngin mədəniyyəti, tarixi abidələri, təbiəti, mətbəxi ilə yanaşı, atları ilə də məşhurdur. Qarabağ atları barədə daha ətraflı Sizdən öyrənmək istəyərdik.***

**Bəhruz Nəbiyev (B.N.):** Qarabağ atları dünyanın ən qədim mədəni at cinslərindən biridir. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ bölgəsində formalaşmışdır. Əsas mənbəyini eramızdan əvvəl mövcud olmuş Nesey atlarından götürmüşdür. Qarabağ atçılığının "qızıl əsri" XVIII - XIX əsrlər hesab edilir. Cinsin ən tipik nümunələri Qarabağ xanları Pənahəli xanın, Mehdiqulu xanın, İbrahim xanın, Cəfərqulu-Cavanşir xanın, Xan qızı Xurşud Banu Natəvanın at zavodlarında yetişdirilmişdir.



*Alyetmez, from the stud of Khurshidbanu Natavan, a daughter of the last khan of the Karabakh Khanate Mehdigulu Khan Javanshir (1772–1845)*

Qarabağ müharibəsi dinc əhalimizin kütləvi soyqırımı, bir milyona qədər qaçqın və məcburi köçkünlər ordusunun yaranması ilə yanaşı, ölkə iqtisadiyyatına, təsərrüfat sisteminə, o cümlədən, atçılığa da ağır zərbə vurmuşdu. 1993-cü ilin avqust ayında Ağdam atçılıq zavodu erməni işğalçıları tərəfindən qəsb edildi. Təcavüzkar erməni qoşunları Ağdam rayonunun ərazisinə soxulan zaman onları ilk növbədə maraqlandıran obyektlərdən biri məhz atçılıq zavodu idi. Lakin ermənilər bu istəklərinə nail ola bilmədilər. Fədakar atçılarımızın sayəsində Qarabağ atlarının döyüş bölgəsindən çıxarılması təmin edildi.

Döyüş bölgəsindən çıxarılan Qarabağ atları əvvəlcə bir müddət Yevlax rayonunda, sonra Bakı Cıdır Meydanında yerləşdirildi. Lakin həmin yerlərin təbii şəraiti Qarabağ atları üçün əlverişli olmadığına görə atlar zavodun Ağcabədi rayonu ərazisindəki Lənbəran qışlağına köçürüldü. Əslində Lənbəran qışlağının da torpaq və bitki örtüyü, təbii şəraiti (xüsusilə, yay dövründə) Qarabağ atlarının doğma yerləri olan Ağdam atçılıq zavodunun yerini vermirdi. Bu isə cinsə artıq sağalmaz yarasını vurmuşdur...



*This Karabakh horse was given to the Great Duchess Xenia Alexandrovna on 1 May 1892.*

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə baş tutan Qarabağ Atçılıq Kompleksinin açılışı Qarabağ atlarının qorunub saxlanılmasında və yetişdirilməsində əvəzsiz addım olmaqla, cinsin inkişafı yolunda yeni bir mərhələnin əsasını qoymuş oldu. Lakin Qarabağın işğaldan azad edilməsi ilə Qarabağ atlarının vaxtilə saxlandığı Ağdamın Eyvazxanbəyli kəndində yerləşən atçılıq zavodu kompleksinin yenidənqurulması və bu atların öz doğma yerlərinə qaytarılması cinsin həyatında yeni mərhələnin başlanğıcı olacaq.

***ADAlılar: Qarabağ atlarını digər cinslərdən fərqləndirən əsas üç cəhət hansılardır?***

**B. N.:** Qarabağ atlarını digər dünyəvi at cinslərindən fərqləndirən cəhətlər çoxdur. Bunları 3 qrupda sistemləşdirsək birinci qrup xüsusiyyətlərə xarici görünüşü ilə səciyyələnən, təkrarsız alovlu qızılı-kürən rəng örtüyünün, proporsional, yığcam və əzələli bədən quruluşunun olmasını aid etmək olar. İkinci qrup xüsusiyyətlərə bu atların ali sinir fəaliyyətləri ilə səciyyələnən yüksək "intellektini", xoş və mülayim xasiyyətini, sahibinə itaətedəcək dərəcədə tabe olmalarını və vəfalılığını, üçüncü qrup xüsusiyyətlərə isə çevik və dözümlü olması, yüksək iş qabiliyyətinə malik olmasını aid etmək olar. Bütün bu özəlliklər Qarabağ atlarından cıdır və idman yarışlarında (ilk növbədə uzaq məsafələrə "endurans" yarışlarında), milli atüstü oyunlarda, turizmdə, ippoterapiyada, sərhəd və patrul xidmətlərində, kənd təsərrüfatı işlərində geniş istifadə edilməsinə imkan yaradır.

***ADAlılar: Sizcə, Qarabağ atlarını bütün dünyaya tanıtmaq üçün nələr etmək lazımdır?***

**X. R.:** Qarabağ atlarını dünyada tanıtmaq üçün ilk növbədə çox sayda və cinsin tələblərinə uyğun çoxlu at yetişdirmək lazımdır. Bunun üçün elmi əsaslandırılmış seleksiya işləri aparılmalıdır. Əlbəttə ki, cinsin genetik imkanlarının üzə çıxarılması üçün müxtəlif istiqamətli məşqlər, idman yarışları, şou-perfomanslar və təşviq işləri...

2013-cü ildə Azərbaycanın Atüstü Milli oyunu "Çövkən"in Qarabağ atı ilə vahid element kimi YUNESKO-nun Təxirəsalınmaz Qorunmağa Ehtiyacı olan Qeyri-Maddi Mədəni irs siyahısına daxil edilməsini, habelə 2013-2014-cü illərdə Polo üzrə dünya çempionatının "Polo vətəninə qayıdır" devizi altında Azərbaycanda keçirilməsi, Qarabağ və Dilbaz atları üzərində Çövkən oyncularının dünya poloçuları ilə yarışması və Azərbaycan komandasının Amerikanın polo komandası üzərində qələbəsini nəinki Azərbaycanın, dünya atçılıq tarixinin ən önəmli səhifələrindən hesab etmək olar.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin açılışında.*

Qarabağ cinsli atların beynəlxalq səviyyədə idman atları kimi tanıdılması istiqamətində daha bir uğurlu addım olaraq milli atçılıq tarixində ilk dəfə Rusiyanın Ryazan şəhərində 80 kilometr məsafədə təşkil olunan uzaq məsafə üzrə beynəlxalq yarışda Qarabağ atının uğurlu iştirakını qeyd etmək olar. Yeddi yaşlı "Gafağlı MNM" ləqəbli Qarabağ atı ilə çıxış edən rusiyalı idmançı Maya Novikova yarışları beşinci yerdə başa vurub. Avqustun 29-da həmin at Ryazanda keçirilən növbəti yarışda da iştirak edərək 2-ci yeri tutmuşdur.

2012-ci ildən etibarən ölkəmizin dəvət aldığı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında Kral ailəsi üzvlərinin şərəfinə ənənəvi olaraq təşkil olunan "Vindzor Kral Atçılıq Şousu" bu qəbildən olan nümunələrdəndir. Son 5 ildə Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsi ölkəmizi və Qarabağ atlarını bütün dünyada qürur hissi ilə təmsil edirlər. Qeyd etmək lazımdır ki, bu tədbirlər Azərbaycan atçılıq tarixində ilk dəfə olaraq reallaşdırılmışdır.



*The show-composition «The Kelaghayi and the Karabakh horses of Azerbaijan», dedicated to the memory of the Queen Victoria, who was the most powerful throne holder in the United Kingdom*

Qeyd olunanlarla yanaşı, süvarilər dəstəsinin Qarabağ atları ilə göstərdiyi möhtəşəm şou digər ölkələr tərəfindən də izlənilir və tamaşaçıların dərin rəğbətini qazanır. Bunun nəticəsidir ki, süvarilər dəstəsi Qarabağ atlarımızla artıq bir neçə ölkənin beynəlxalq mədəniyyət tədbirlərinə dəvət almışdır. Buna misal olaraq 2019-cu ilin oktyabr ayında Türkiyənin İstanbul şəhərində təşkil olunan 4-cü Beynəlxalq Etnospor Festivalını göstərmək olar. 16 ölkənin iştirakı ilə keçirilən tədbirdə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsi ölkəmizi təmsil etmişdir.









*«Sarhadchi» Cavalry Team in 35th Snow Polo St.Moritz*



# Stallion **Ada**

Karabagh stallion Ada was born in 2000 at the National Stud in Azerbaidjan and came to Germany in 2006. In 2007, he was licensed for breeding by the Hessian Horse and Pony Breeders Association in Alsfeld and entered in the Stallion Stud Book 1. 2009, he completed the stallion quality test 'Western' at ZSAA in Kreuth with an overall note of 7.23 and 9.0 character points. 2013, he received the recognition from the Bavarian Breeders Association for Small Horses ans Special Breeds in Munich-Riehm. Ada was continuously placed in Western competitions from 2008 to 2012 and participated successfully in multiple Endurance Races in the 40km-60km distances class.

Ada has produced 10 prodegnies – both his sons out of Sirli, Shahin (born in 2014) and Saravan (born in 2015), have been selected as premium foals at the foal shows in 2014 and 2016 respectively, as well as both being voted winnig foals in the section 'Special Breeds'. Shahin is now also licensed for breeding. Ada's owner Silke Ehrenberger is truly proud to own this rare and amazing stallion, who has been her trusted companion for the past 14 years. She displays Ada at national horse events as the representative for the rare Karabagh breed as well as Azerbaidjan. For this, she is dressed in the national azerbaijan dress, which was tailored for her in Azerbaidjan. The Azerbaidjani flag completes the picture. In those displays, she also raises awareness for the breed itself and aims to contribute to saving this breed from extinction.

In 2017, she met Cathy Field and together, they created the highly successful 'Showteam Allegria'. This equestrian showteam is now specializing in entertaining their audiences with fire displays, mounted games, mounted archery, skills-at-arms – and both have a lot of fun!











Silke Ehrenberger and her stallion Ada





# Karabakh Cuisine

# SHUYUD PLOV

## Dill pilaf



Mən Zenfira Orucova 1952-ci ildə anadan olmuşam.
Şuşa şəhərini mən çox sevirəm. Ora gedəndə biz qayıtmaq istəmirdik. Şuşanı gəzməklə qurtarmaq olmaz. Havasını, suyunu, dadlı yeməklərini heç vaxt unutmaq olmaz. Biz yay vaxtı Şuşaya gedəndə heç vaxt rəngimiz qaralmırdı, əksinə gözəlləşirdi. Şuşa şəhərindən çox danışmaq olar. Cıdır düzü, İsa bulağı... sayıb qurtarmaq olmaz. İgidlərimiz artıq Qarabağı işğaldan azad etdilər. Qarabağ bizimdir!
Sağ olsun prezidentimiz İlham Əliyev cənabları. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***Zenfira Orucova, grandma of Fuad Orujov 11C1***

### Şüyüdlü plovun hazırlanması

***Tərkibi:***

Uzun düyü - 1 kq
Şüyüd - 5 dəstə
Kərə yağı - 200-250 qr
Duz - 2 x/q
İstiot - zövqə görə əlavə olunur
Zövqə görə mal əti və ya toyuq əti əlavə olunur.

***Hazırlanma qaydası:***

Düyünü duzlu suda isladırıq. Suyu qaynadıb düyünü qazana tökürük. Şüyüdü yuyub incə-incə doğrayırıq. Düyünü süzdükdən sonra aşsüzəndə üzərinə doğranmış şüyüdü tökürük. Asta-asta qarışdırırıq ki, düyü əzilməsin. Qazana qazmağı qoyub düyünü tökürük. Ərinmiş yağı tökub dəmə qoyuruq. Əti doğrayıb soyutma bişiririk. Qazanın dibini yağlayıb qazmaqları yığırıq, üstən bir az düyünü birdə əti yığırıq üzərinə, yerdə qalan düyünü ətin üzərinə yığırıq. Ən axırda düyünün üzərində yuvalar açırıq hər yuvaya 1 dənə yumurta əlavə edirik. Sonra üzərinə duz, istiot əlavə edirik. Yağı üzərinə əlavə edib 30 dəq dəmə qoyuruq. Sarımsaqlı qatıqla birlikdə süfrəyə verilir.





# Karabakh Kyata

*My grandmother is from Shusha.*

*I grew up on stories about Karabakh and the beauty of its nature. I always represented the beautiful Garabagh horses, Jydyrduzu. I missed a city I have never been to. I cried tears of happiness when I found out that I could go there. Perhaps it sounds strange for foreigners, but every Azerbaijani will understand what I mean.*

*Therefore, on the day of the liberation of Shusha we had a great holiday at home. I first cooked this sweet on this very day - 8th November 2020. This is our family recipe, which was passed on to us from my great-grandmother. I think that our cuisine is one of the most delicious in the world. And it is youth's job to bring our heritage to the world.*

*Firuze Mammadova 10D Class*

## Ingredients

**Dough:**
- 225 gr flour
- 1/2 teaspoon dry fast-acting yeast
- a pinch of salt
- 1 egg
- 50 ml milk
- 25 g butter
- 1.5 tbsp. sugar
- 1/2 teaspoon saffron tincture

**Filling:**
- 150 gr flour
- 150 g sugar
- 50 gr butter
- +egg yolk and a teaspoon of saffron tincture


1 Sift the flour.Add yeast, a pinch of salt and stir.


2


3


4 In a separate bowl, beat the egg,sugar,melted butter and saffron tincture.


5 Combine dry and wet mixtures. Knead the dough gently for about 5 minutes.It should be soft and smooth.


6 Send the dough to a warm place for an hour and a half.


7


8 Mix flour,sugar,butter for the filling.If the filling is going into a ball when you squeeze it in your hand, it's done.


9 Divide the dough into 2 parts. Shape into balls,cover and rest for 10 minutes.


10 At this time, collect 2 large balls from the filling.


11 Roll out the dough of medium thickness


12 Put the filling ball in the center and pinch it. Turn seam down and shape into a pancake. Cover with a towel and rest for another 10 minutes.


13


14 For the greasing mix together egg yolk and saffron infusion.


15 Grease kyatas with mixture


16 and apply the traditional pattern with the back of the fork.





**Puncture** in several places

**Send to oven** preheated to 180' for 20-25 minutes

**Brew delicious tea** and enjoy



## Firuza Mammadova 10D





# QARABAĞ XALÇALARI

## Qarabağa aparan qədim naxışlar

**ADAlılar Rifah Zeynalov (10C1), Aylin Baktaşı (10B4) və Fatimə Xubyarova (10A2) Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin xanım Məlikovanın dəvəti ilə muzeydə qonaq oldular. ADAlılraımız həm muzeyin eksponatlarına baxdılar, həmdə Şirin xanımla xalçalar barədə maraqlı söhbət etdilər...**

***Rifah Zeynalov (R.Z.): Salam Şirin xanım. Vaxt tapıb bizimlə görüşə razılıq verdiyiniz üçün Sizə təşəkkür edirik. Azərbaycan Milli Xalça Muzeyinin bu cür gözəl məkanda və müasir üslubda yaranması xalça sənətinin Azərbaycan üçün necə bir yüksək milli dəyər olduğunun göstəricisidir. İstərdik ki, bu möhtəşəm muzeyin rəhbəri kimi muzeyin yaranması və fəaliyyəti barədə bir qədər danışasınız.***

**Şirin Məlikova (Ş.M.):** Azərbaycan Milli Xalça Muzeyinin tarixi 1967-ci ildən başlayır. Muzeyin ilk ekspozisiyası 1972-ci ildə İçərişəhərdə yerləşən, XIX əsr memarlıq abidəsi – Cümə məscidinin binasında açılmışdır. Muzeyin açılışında Azərbaycan xalqının ümummilli Lideri Heydər Əliyev iştirak etmişdir.
2007-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı əsasında xüsusi olaraq xalça muzeyi üçün yaradılmış yeni bina Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və YUNESKO-nun birgə layihəsinə çevrilmişdir. Açılan sehrli xalça formalı bənzərsiz tikilinin memarı – məşhur avstriyalı arxitektor Frans Yansdır. Yeni binanın təntənəli açılışı 26 avqust 2014-cü il tarixinə təsadüf edir. Artıq bu məkan şəhərimizin simvollarından birinə çevrilmişdir.

Muzeydə gözəlliyi və çeşidliliyi ilə heyrətləndirən 10 mindən artıq eksponat qorunub saxlanılır.

Muzeyin ekspozisiyası Azərbaycanda xalçaçılıq sənətinin tarixini, müasir vəziyyətini və inkişaf tendensiyalarını, kompozisiya tiplərini və ornamentlərini əks etdirir. Muzeydə həmçinin Azərbaycan xalqına xas digər tətbiqi sənət növləri də geniş təqdim edilir.




Photo by Fatima Khubyarova 10A2

***Aylin Baktaşı (A.B.): Eyni zamanda Siz Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin sədrisiniz. Bu Şuraya üzvlük Azərbaycan üçün hansı imkanlar açır?***

**Ş.M.:** İlk növbədə qeyd edim ki, ICOM-un üzvü yalnız muzey əməkdaşları ola bilər. İCOM üzvləri dünyanın əksər muzeylərini ödənişsiz ziyarət edə bilərlər. Bununla yanaşı, muzey peşəkarları üçün bir çox imkanlar yaradır. Belə ki, müxtəlif beynəlxalq və milli komitələr çərçivəsində onlar öz sahələri üzrə konfrans və treninqlərdə iştirak edir, öz iş təcrübələri ilə bölüşür, müxtəlif muzeylərlə birgə layihələr təşkil edirlər.
Bununla yanaşı, 2017-ci ildən İCOM-un bir neçə beynəlxalq komitələrinin illik konfransları Azərbaycanda təşkil olunmuşdur. Avropa, ABŞ və Asiyanın muzey nümayəndələri, İCOM-un prezidenti həmin konfransa qatılmışdır. Bu da ölkəmizdəki muzeylərin işinin dünya səviyyəsində təbliğində çox yaxşı imkandır.

***R.Z.: Necə oldu ki, Siz incəsənətin bu sahəsini seçdiniz?***

**Ş.M.:** Mən özüm ziyalı ailədə göz açmışam, məni daim incəsənət əsərləri əhatə edib.
2001-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını "İncəsənət tarixi və nəzəriyyəsi" ixtisası üzrə magistraturanı fərqlənmə diplomu ilə bitirmişəm. "Azərbaycan XVI-XVIII əsrlər bədii parça və tikmələri" mövzusunda dissertasiya işini müdafiə etmişəm. Sənətşünaqlıq üzrə fəlsəfə doktoru, dosentəm. 2008-2012-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sənətşünaslıq" kafedrasında, 2012-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında dərs deyirəm.
Yəni, incəsənət, dekorativ-tətbiqi sənət və onun ayrılmaz hissəsi olan xalça sənəti mənim üçün uşaq yaşlarından çox yaxındır.

***A.B.: Dünyada ilk xalçanın yarandığı dəqiq tarix bəlkə də heç kimə məlum deyil. Sizcə, xalçalar nə zamandan sadəcə yerə sərilərək insanlara istilik vermək funksiyasından əlavə, bir incəsənət əsəri kimi dəyərləndirilməyə başlanıb?***

**Ş.M.:** Təbii ki, ilk yaranan xalçanın tarixi məlum deyil. Azərbaycan dünyada ən qədim xalçaçılıq regionlarından biridir. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif alət, eləcə də parça qalıqları müasir Azərbaycan ərazisində xalçaçılığın Tunc dövründə meydana gəldiyini deməyə imkan verir.
Cənubi Azərbaycanın Maku əyalətində aşkar edilmiş gildən hazırlanmış, üzərində ov iti, ceyran və quş, habelə gül və budaq naxışları ilə bəzədilmiş çul olan at fiquru (e.ə. II minillik), Urmiyə gölü yaxınlığındakı Həsənli təpəsində aşkarlanmış, kürəyində çul olan aslan təsvirli qızıl cam (e.ə. I minillik) Azərbaycan xalq sənətinin bir qolu olan xalçaçılığın qədim tarixə malik olduğuna dəlalət edir. Xalçalar yarandığı vaxtda həm utilitar, həm də sənət əsəri kimi dəyərləndirilib. Təqribən 2500 yaşı olan dünyada ən qədim xalça Dağlıq Altayda Pazırıq kurqanında tapılmış və hal-hazırda Sankt-Peterburqdakı Dövlər Ermitajında saxlanılan unikal xalçadır. Sankt-Peterburq şəhərinə səfər edən hər bir kəsə Pazırıq xalçasına tamaşa etməyinizi tövsiyə edirəm.

***R.Z.: Azərbaycanın xalçaçılıq sənətində Qarabağ xalça qrupunun xüsusi yeri vardır. Qarabağ xalçaları digər xalçalardan hansı xüsusiyyətləri ilə fərqlənir?***

**Ş.M.:** Qarabağ Azərbaycanın ən qədim insan məskənlərindən biridir. Bu bölgənin bir çox şəhərləri xalça sənəti ilə məşhur olmuşdur. Onlardan Bərdə, Ağdam, Ağcabədi, Kəlbəcər, Füzuli, Laçın, Şuşa kimi şəhərlərin adını çəkmək olar. Bərdə şəhəri Qarabağın ən qədim mədəniyyət və incəsənət mərkəzlərindən biri olub, Albaniya dövlətinin Qəbələdən sonra ikinci paytaxtı olmuşdur. Qarabağda müxtəlif adlarda



xalçalar toxunur. Qarabağın ən məşhur xalçalarından “Bərdə”, “Xanqərvənd”, “Qoca”, “Buynuz”, “Dəryanur”, “Açma-yumma”, “Xanlıq”, “Muğan”, “Qasımuşağı”, “Bəhmənli”, “Lәmpә” və s. adlarını çəkmək olar.

Qarabağ, Təbriz qrupu istisna olunmaqla daha böyük ölçülü xalçaların mərkəzi hesab oluna bilər. Burada XVII sonu – XVIII əsrin əvvəllərindən başlayaraq üç, bəzən də beş hissədən ibarət dəst xalı-gəbələr toxunmuşdur. Halbuki nəinki Azərbaycanın digər xalça qruplarına aid olan məntəqələrində, hətta cəsarətlə demək olar ki, dünyanın heç bir yerində dəst xalı-gəbələr toxunmur. Dəst xalı-gəbələrə “ortalıq” xalı və onun iki yan tərəfinə salınan gəbələr aiddir. Ortadakı xalı yan gəbələrə nisbətən 15-20 sm enli olur. Bəzən bu üçlüyə “başlıq” və “qapıağzı” deyilən ayaqlıq hissə də əlavə edilir. Bu nadir hallarda olur. Hər 3 və yaxud 5 xalı-gəbənin rəng, kompozisiya və naxışları eyni olur.

Qarabağ xalı-xalçaları az sıxlığa (25x25 sm, 30x30 sm, 35x35 sm) malik olub, xov hündürlüyü 6-10 mm-ə çatır. Qarabağ xalçaları əlvan (qırmızı, sarı) və kontrast rənglərdə toxunur. Ara sahə yerliyi ənənəyə uyğun olaraq qırmızı və qara rəngdə olur. Qarabağ xalçalarında klassik, totem və işarə xarakterli stilizə edilmiş elementlərlə yanaşı, ən çox Təbriz xalça kompozisiyaları da toxunur. Lakin, istər Təbriz, istərsə də Avropanın xalça, parça və süfrələrindən götürülən naxışlar stilizə edilərək yerli naxış üslubuna tətbiq edilir.

***A.B.: Muzeydə sərgilənən Azərbaycan xalçaları sırasında Qarabağ xalçaları təmsil olunubmu? Onlar hansılardır?***

**Ş.M.:** Qeyd edim ki, dünyada Qarabağ xalçalarının ən zəngin kolleksiyası bizim muzeydədir və bu xalçalar bütün kompozisiyaları əhatə edir. Burada XVII əsrin “Xətai” xalçalarından tutmuş XX əsrin əvvəlinə aid süjetli xalçalar qorunur. Bu qrupun kompozisiyaları sırasında “Baxçada güllər”, “Balıq”, “Buynuz”, “Bəhmənli”. “Qarabağ”, “Qoca”, “Qasımuşağı”, “Lənbəran”, “Muğan”, “Talış”, “Lәmpә”, “Malıbəyli”, “Xantirmə”, “Xanlıq”, “Çələbi”, “Şabalıdbuta”, “Naxçıvan” və digərlərini sadalamaq olar. Maraqlıdır ki, muzeyin əldə etdiyi ilk xalça 1967-ci ildə alınmış, XIX əsrin sonuna aid Qarabağın “Balıq” xalçasıdır.

***R.Z.: Məşhur Çələbi xalçaları barədə eşitmək maraqlı olardı.***

**Ş.M.:** “Çələbi” və ya “Bərdə” adlı xalça kompozisiyası Qarabağın ətraf kəndlərində, o cümlədən Bərdənin 10 km şərqində yerləşən Çələbi kəndində toxunmuşdur. Görkəmli xalça tədqiqatçısı Lətif Kərimovun fikrinə əsasən, türk xalqlarında “Çələbi” sözü bəy, əfəndi, həmçinin yüksək mənsəb sahiblərinə verilən fəxri titul idi.

Xalça tək göl kompozisiyası əsasında tərtib olunmuşdur. Ara sahənin mərkəzində “Çələbi” xalçalarına xarakterik olan eyni quruluşlu göl elementi verilir. Qarabağ xalçaçılığında geniş yayılmış “Günəş” və ya “Çələbi” adlı göl elementi hər tərəfə şüalarını yayan günəşin rəmzi olub, həm də ilahi nura işarədir.

On iki ləçəkli oxşəkilli, girintili və çıxıntılı formalardan ibarət olan bu göl elementi XIV – XVI əsrlərin peşəkar rəssamlarının yaratdıqları medalyonları təqlid edir və Qarabağ növlü xalçaların digər qrupları arasında da istifadə olunurdu.

***A.B.: Qarabağımız nəhayət ki, düşmən işğalından azad olunubdur. Qarabağda, xüsusilə də Şərqin mədəni beşiyi sayılan Şuşada xalça muzeyi yaratmaq planları varmı?***

**Ş.M.:** Bilirsiniz, hələ 1987-ci ildə Şuşada muzeyimizin filialı təntənəli surətdə açılmış və 1992-ci ilə qədər fəaliyyət göstərmişdir. Qeyd edək ki, 1992-ci ildə Şuşa filialından 246 eksponatdan 183 eksponat təxliyə olunaraq bu günədək Azərbaycan Milli Xalça Muzeyində qorunub-saxlanılır. Hal-hazırda Şuşaya aparılacaq eksponatların siyahısı yenilənir. Yenidən fəaliyyəti bərpa olunan filial Azərbaycan Milli Xalça Muzeyinin qabaqcıl iş prinsipini özündə əks etdirməsi üçün xüsusi proqramlar işlənib-hazırlanması nəzərdə tutulub.


Photo by Fatima Khubyarova 10A2


Photo by Fatima Khubyarova 10A2

***R.Z.: Məlumdur ki, xalçaların toxunmasında ornamentlərin xüsusi rolu var. Ornamentlər regiondan regiona fərqlənirmi? İnsanların yaşadıqları coğrafi məkan (məsələn dağlıq və ya aran zonası) xalçaların ornamentlərinə təsir göstərə bilirmi?***

**Ş.M.:** Əlbəttə, təsiri var. İnsanlar xalçaya onları əhatə edən təbiəti, əşyaları, öz inanc və duyğularını ilmələr vasitəsi ilə həkk edirlər. İlk öncə qeyd edim ki, naxış, ornamaent mövzusu çox geniş mövzudur və o bir müsahibəyə salına bilməz.

Naxış qismində mən əjdaha ornamentini misal gətirmək istərdim. Özündə qoruyucu mənanı əks etdirən simvola biz əksər Qarabağ xalçalarında rast gəlirik. Bunu “Xətai”, “Qasımuşağı” kimi xovlu və vərni kimi xovsuz xalçalarda rast gəlirik.

***A.B.: İstənilən xalçanın dəyərini təşkil edən əsas 2 amil hansılardır?***

**Ş.M.:** Xalçanın dəyərini təşkil edən əsas iki amil – onun toxunmasında istifadə olunan xammal və toxunmanın keyfiyyətidir. Xammal dedikdə, biz xalçanın toxunmasında istifadə olunan yunun keyfiyyətini nəzərdə tuturuq. Toxunmanın keyfiyyəti – kompozisiyanın düzgün alınmasıdır.

***R.Z.: Sərgilərdən danışaq. Bilirik ki, Azərbaycan xalçaları bir çox ölkələrin sərgi zallarında nümayiş etdirilir. Keçirilmiş sərgilər barədə öyrənmək maraqlı olardı.***

**Ş.M.:** Azərbaycan xalçaları demək olar ki, bütün dünyada sərgilənib. Təşkil olunan sərgilər daim böyük maraqla qarşılanıb. Bu gün bizim xalçalar müvəqqəti sərgilərlə yanaşı, dünya şöhrətli muzey ekspozisiyalarının daimi eksponatları sırasındadır.

Azərbaycan Milli Xalça Muzeyinə gəldikdə, son illərdə bizim silsilə sərgilərimiz İstanbul, Moskva, Tbilisi, Pekin, Sofiya, Belqrad və digər şəhərlərdə təşkil olunub. Onlardan Türk və İslam Əsərləri Muzeyində təşkil olunan sərgini xüsusi vurğulamaq istərdim. 13 mart 2020-ci ildə AMXM “Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” və Azərbaycan ənənəvi xalçaçılıq sənətinin YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi çərçivəsində “Türk və İslam Əsərləri Muzeyinin kolleksiyasından Azərbaycan xalçaları” adlı sərgi və eyni adlı kitab-kataloqun təqdimatı təşkil olunmuşdur. XVII-XIX əsrlərə aid olan on iki ədəd nadir və indiyə kimi heç vaxt sərgilənməyən Azərbaycan xalçaları ilk dəfə nümayiş etdirildiyi bu sərgi izləyicilər tərəfindən böyük maraqla qarşılanmışdı.

***A.B.: Bildiyim qədəri ilə, xalçaların toxunmasının iki***


Photo by Fatima Khubyarova 10A2



***üsulu var - əllə toxunma və maşın toxunması. Bunların arasında fərq nədədir?***

**Ş.M.:** İlk növbədə maşın xalçasına əl vurduqda onun maşınla toxunmasını hiss etmək olar. Belə xalçaların arxa tərəfi sürüşkəndir və onlardan kimyəvi yapışqan iyi gəlir. Əllə toxunan xalçaların isə arxa hissəsində ilmələri aydın şəkildə görmək olur və onlardan təbii yun iyi gəlir.

***R.Z.: Dünyada kompüter texnologiyası hər bir sahədə tətbiq olunur. Süni intellekt az qala incəsənətdə də insan əməyinin yerini tutmaq istəyir. Necə düşünürsünüz, gələcəkdə xalçaların toxunmasında kompüter texnologiyasından istifadə ehtimalı varmı?***

**Ş.M.:** Artıq uzun illərdir ki, rəssamlar öz təcrübəsində kompüter imkanlarından istifadə edərək müxtəlif kompozisiyalı xalçalar yaradırlar. Hətta bizim muzeydə də vaxtı ilə uşaqlar üçün belə bir kompüter oyunu tətbiq olunmuşdur. Burada ara sahə, haşiyələr üçün müxtəlif naxışları, rəngləri seçərək öz xalçanı yaratmaq mümkündür.

***A.B.: Dünyada ən baxalı / dəyərli xalça hansıdır?***

**Ş.M.:** Yəqin ki, bu suala dəqiq cavab vermək çətindir. "Şeyx Səfi" xalçasını desəm səhv etmərəm.

***R.Z.: Bəzi xalçalar öz rəsmlərində və ornamentlərində bir növ şifrlənmiş mesajlar daşıyır. Sizcə, bir ekspert kimi, təsvirlər vasitəsilə ötürülən hər bir mesajı anlamaq asandırmı?***

**Ş.M.:** Hazırlıqlı, müəyyən biliklərə malik tamaşaçı üçün əlbəttə ki, bu mesajları anlamaq mümkündür. Amma adi bir tamaşaçı üçün yox. Xalçalardakı bir çox naxışlar – qədim damğalar, öz mənasını itirmiş işarələrdir. Və onların düzgün anlanması üçün tarix, arxeologiya, sənətşünaslıq, dilçilik, mifologiya, dinşünaslıq və digər elm sahələrində biliklərə malik olmaq lazımdır.

***A.B.: Bilirik ki, Azərbaycan xalçaları dünyanın bir çox ölkələrinin muzeylərində nümayiş etdirilir və ya şəxsi kolleksiyalarda saxlanılır. Sizcə, ölkənin milli sərvəti sayılan dəyərli qədim xalçalar öz yarandığı vətənində saxlanılmamalıdırmı?***

**Ş.M.:** Xarici muzeylərdə qorunan Azərbaycan xalçaları ən qiymətli eksponatlar sırasındadır. Viktoriya və Albert, Metropoliten İncəsənət, Luvr və bir çox digər muzeylərin daimi kolleksiyasında onları görmək, burada "Azərbaycan" adının qeyd olunması özü-özlüyündə ölkənin təbliğində rol oynayır. Ancaq biz tez-tez belə hallarla qarşılaşırıq ki, bu xalçaların toxunma məkanı kimi "Qafqaz", "İran" və ya "Ermənistan" qeyd olunur. Bu gün xalça muzeyinin ümdə olan vəzifələrindən biri elmi dəlillərlə bu xalçaların Azərbaycana aid olmasını sübuta yetirmək və muzey mətnlərində düzəlişlər etmək durur.

O ki qaldı, şəxsi kolleksiyalara – biz kolleksionerlərlə sıx əməkdaşlıq edirik, artıq bir neçə xarici kolleksionerlər öz kolleksiyalarında qorunan nadir Azərbaycan xalçalarını bizə hədiyyə edib və ildən-ilə onların sayı artmaq üzrədir.

***R.Z.: Ən qədim xalçanın neçə yaşı var?***

**Ş.M.:** Yuxarıda qeyd etdiyim kimi, dünyada ən qədim xalça – e.ə. V-IV əsrlərə aid Pazırıq xalçasıdır. Azərbaycan Milli Xalça Muzeyinə gəldikdə - ən qədim xalçalar – XVII əsrə aid Şirvanın "Şamaxı", Qarabağın "Xətai" və "Əjdahalı" xalçalarıdır.

***A.B.: Mənfur qonşumuz Ermənistan bizim mədəni sərvətlərimizi, tarixi abidələrimizi, musiqimizi, mətbəximizi tarix boyu oğurlayıb mənimsəməyə çalışıb. Maraqlıdır, Azərbaycan xalçalarını da özlərinki kimi dünyaya göstərməyə cəhd ediblərmi?***



Photo by Fatima Khubyarova 10A2



**Ş.M.:** Əlbəttə! Onlar bu təbliğat işini uzun illərdir ki, aparırlar. Son illərdə biz belə desək "xalça cəbhəsi"ndə vuruşur və xalçalarımızı geri alırıq.

Onlar bir çox xalçalarımızın adını dəyişdirərək öz adlarını, məsələn, "Çələbi" xalçasını "Çelabert", "Xətai" xalçasını "Vişapaqor" və s. kimi təqdim edirlər. Biz də xarici muzeylərdə erməni adı ilə tanınan Azərbaycan xalçalarını elmi dəlillərlə bizə aid olduğunu sübuta yetirərək yaranma yeri kimi Azərbaycanın qeyd olunmasına nail oluruq.

***R.Z.: Xalçaçılıq kimi qədim incəsənət nümunəsinin bugünkü gənclər arasında təbliğ olunması üçün, Sizcə, hansı işlər görülməlidir?***

**Ş.M.:** Bizim muzeydə bugünkü gənclər arasında xalça sənətinə maraq yaratmaq üçün bir çox proqramlar işlənib hazırlanmışdır. Amma ən əsası sizin muzeyimizə gəlməyinizdir. Muzeyimizdəki mütəxəssislər sizdə bu sənət haqqında müfəssəl məlumat yaradacaq və bu sənəti sizə sevdirəcəklər.

***A.B.: ADA Məktəbinin şagirdlərinə nə arzulayardınız?***

**Ş.M.:** Pandemiya ilə əlaqədar hər birinizə ilk növbədə cansağlığı, təhsilinizdə uğurlar, daha çox öz üzərinizdə işləməyi, qarşınıza qoyduğunuz məqsədlərə çatmağı və Vətənimizə layiqli övlad olmağı arzulayıram.

***Gördüyünüz və görəcəyiniz işlər həqiqətən də çox maraqlıdır. Azərbaycanın milli mənəvi dəyərlərinin qorunub saxlanılmasında, eləcədə Azərbaycan incəsənətinin incisi olan milli xalçaçılıq sənətinin dünyaya təbliğ edilməsində Sizə uğurlar arzulayırıq.***



Photo by Fatima Khubyarova 10A2





# NATIONAL MOVIES

